# XIX ƏSRDƏ QAFQAZ UĞRUNDA İNGİLTƏRƏ-RUSİYA-İ RAN QARŞIDURMASI

A.M. ƏLİZADƏ*
Ə.H.YUNUSOV****

**Xülasə:** Bəşər sivilizasiyanın ən qədim və zəngin mərkəzlərindən biri olan, özünün unikal coğrafi mövqeyi ilə seçilən, müxtəlif dinlərin, dillərin, etnosların sivilizasiyaların yanaşı mövcud olduğu Qafqaz lap qədim dövrlərdən fövqəl dövlətlərin nəzər-diqqətini cəlb etmişdir. Tarixin ilk çağlarında Şərq, daha sonra isə Qərb dövlətləri Qərblə-Şərqin, Şimalla-Cənubun kəsişdiyi nöqtədə yerləşən Qafqaza daim maraq göstərmişlər.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərindən isə region uğrunda İngiltərə-Rusiya diplomatik qarşıdurması kəskin xarakter almış və bu qarşıdurma Çar Rusiyasının müvəqqəti tarixi qələbəsi ilə nəticələnmişdir. İstər Çar Rusiyasının, istərsə də Sovet Rusiyasının və istərsə də bu günkü Rusiya Federasiyasının anti-Qafqaz siyasətinə qarşı Qafqaz xalqları daim müqavimət göstərmiş və bu gün də göstərməkdədirlər.

B.Napoleon yazırdı ki, "Süngü ilə bütün dünyanı fəth etmək olar, amma süngünün üzərində çox oturmaq olmaz".

***Açar sözlər**: Qafqaz xalqları, imperiya, antik, Ost-Hind, dekabristlər, aktorlar.*

**Anglo-Russia Conflict for the Caucasus in the 19th Century**

**Abstract**: The Caucasus, one of the oldest and richest centers of human civilization, distinguished by its unique geographical location, where various religions, languages, ethnicities and civilizations coexisted, has attracted the attention of superpowers since ancient times. In the early ages of history, Eastern and later Western states have always shown interest in the Caucasus, located at the intersection of West and East, North and South.

From the end of the 18th century and the beginning of the 19th century, the Anglo-Russian diplomatic conflict for the region took on a sharp character, and this conflict resulted in the temporary historical victory of Tsarist Russia. The peoples of the Caucasus have always resisted and continue to resist the anti-Caucasus policy of Tsarist Russia, Soviet Russia, and the current Russian Federation.

B. Napoleon wrote that "You can conquer the whole world with a bayonet, but you can't sit on it too long."

***Key Words:** Caucasian peoples, empire, antiquity, East Indies, Decembrists, actors.*

## Giriş

Antik yunan mənbələrində ilk dəfə adına rast gəldiyimiz Qafqaz regionu lap qədim çağlardan öz dövrünün siyasi aktorlarının diqqət mərkəzində olmuşdur. Qafqaz geosiyası baxımdan çox əlverişli bir ərazidir. Region Avropa ilə Asiyanın, Şimal ilə Cənubun, Qərblə Şərqin kəsişdiyi nöqtədədir.

E.ə. Midiya, Əhəməni, Makedoniya-Yunan, Parfiya, Roma imperiyaları, b.e. əvvəllərindən etibarən isə Sasani, ərəb-islam, Bizans, Xəzər xaqanlığının, Səlcuqilər, Manqol-Türk, daha sonralar Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Osmanlı və Rusiya imperiyaları bu coğrafi regiona öz xarici siyasətlərində xüsusi önəm vermişlər.

Region uğrunda daim Sasani-Ərəb, Ərəb-Bizans, Ərəb-Xəzər, Bizans-Xəzər, Osmanlı-Rusiya qarşıdurmaları səngimək bilməmişdir. Nəhayət yeni dövrdən etibarən isə Qərb dövlətlətlərinin regiona marağı artmış və buda dünyanın unikal coğrafi mövqeyinə malik Qafqaz uğrunda Qərb Rusiya hərbi-siyasi qarşıdurmasına səbəb olmuş və nəticə etibarı ilə Çar Rusiyasının tarixi qələbəsi ilə nəticələnmişdir.

Qafqaz bu gün də özünün siyasi-iqtisadi, coğrafi və hərbi-strateji mövqeyinə görə dünya dövlətlərinin diqqət mərkəzindədir. Bölgənin Asiya, Avropa və Afrika qitələrinin ortasında olması mühüm siyasi-strateji əhəmiyyət kəsb edir. Həmçinin Ağ dəniz, Egey dənizi, boğazlar və Mərmərə dənizi, Qara dəniz, Aralıq dənizi kimi bir-birinə bağlı iç dənizlərin mövcud olduğu bir su dəhlizinin eyni zamanda Xəzər dənizilə Şərqə bağlandığı görünməkdədir. Məhz bu strateji əhəmiyyətinə görə Dəli Pyotr XVIII əsrin əvvəllərində

---

* Əlizadə Arif Məmməd oğlu - Qərbi Kaspi Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru, e-mail: aarifelizade@gmail.com

**** Yunusov Əjdər Hümbətalı oğlu - Bakı Avrasiya Universiteti, Humanitar fənlər və regionşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru, e-mail: humbatali@mail.ru

Qafqaza qarşı qurduğu planın əsas məqsədlərindən biri Xəzər dənizi vasitəsi ilə Hindistana gedən ticarət yollarına sahib olmaq idi (Əliyarlı, 2009: 5).

**Qafqaz "Şərq siyasəti"nin tərkib hissəsi kimi**

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Qafqazda istər iqtisadi, istərsə də siyasi, hərbi- srateji baxımdan xüsusi yer tutan Azərbaycan beynəlxalq güclərin toqquşduğü bir məkana çevrilmişdi. Çox təəssüf ki, Quzey Azərbaycanında həmin vaxt feoodal pərakəndəliyi mövcud idi. Ərazi 12 xanığa bölünmüşdü. Hər bir xanlıq da, özünü müstəqil esab edir, hər birinin dövlət atributları -ərasizi, paytaxtı, qoşunu, xəzinəsi, dəftərxaası, xanı, vəziri vardı. Hər birndə olan mənəm-mənəmlik onlarln vahid halda birləşməsinə imkan vermirdi. Pənahəli xan, Çələbi xan, Qubalı Fətəli xan vahid övlətdə birləşmək üçün müəyən cəhdlər etsələr də, nətisəi olmamışdı. Bax, odur ki, belə bir vaxtda Azərbaycanın vahid bir dövlətdə cəmləşməməsi beynəlxalq güclərin burada məkirli siyasətlərinin həyata keçirilməsinə real şərait yaradırdı.Türkiyə, Fransa, İran, İngiltərə və Rusiyanın maraqları məhz burada tokquşurdu.

Odur ki, məqaəlnin bu yerində beynəlxlaq güclər arasındakı münasibətləri nəzərdən keçirmədən qarşıya qoyulan məqsədə aydınlıq gətirmək olmaz. Qeyd ounan dövrdə baş verən Fransa inqilabı (1789-1794) beynəlxalq münasibətlərə yeni istiqamət verəcəyi, qonşu dövələrə təsir edəcəyi göz önündə idi. Bu təsirdən qorunmaq üçün Avropa dövlətləri Fransaya qarşı birləşdilər. 1794-cü il 9 termidor çevrilişindən sonra Fransa burjuasiyasının işğalçılıq siyasətinə başlaması Mərkəzi və Şərqi Avropa dölətlərinin ona qarşı birləşməsinə gətirib çıxardı. 1798-ci ildə Rusiya, İngiltərə və Avstriya Fransaya qarşı yeni bir birlik yaratdılar (Əliyarlı, 2009: 572).

Həmçinin uzun müddət ənənəvi müttəfiq olan Türkiyə və Fransa arasında savaşın düşməsi Türkiyəni Rusiyaya yaxınlaşdırdı. Tarixdə ilk dəfə Rusiya ilə Türkiyə arasında 1799-cu il yanvarın 3-də İstanbulda ittifaq müqaviləsi imzalandı. Rusiya, İngiltərə və Avstraliyayanın fransaya qarşı 1798-1799-cu illərdə apardığı müharibəyə ara verildikdən sonra 1801-ci ildə car I Pavelin sui-qəsd nəticəsində öldürülməsindən sonra İranda nufuz uğrinda başlanan mübarzə beynəlxalq münasibətlərin yeni istiqamətə daxil olmasına gətirib çıxardı.

1800-cü ilin dekabrında və 1801-ci ilin yanvarında İranla İngiltərə arasında müqavilələr imzalandı. İran-İngiltərə münasibətləri dərin tarixi köklərə malik olub, geniş məsələləri əhatə edir. Bu münasibətlərdə Azərbaycanla bağlı məsələlər də, özünəməxsus yer tutmuşdu. Ona görə də İran-İngiltərə dövlətlərarası müqavilələrini də burada nəzərdən keçirməyə ehtiyac yaranmışdır. Siyasi və və ticarət münasibətlərini əks etdirən müqavilələrin şərtlərinə görə İngiltərə hər hansı dövlətin İrana hücum edəcəyi halda hərbi və maliyə dəstəyi etməyi öz üzərinə götürür, İran bazarları ingilis taçirlərinin üzünə açıq elan edilirdi. Bu müqvilə ilə İngiltərə İranın daxili işlərinə qaışmaq imkanı əldə etdi. Müqavilənin müəyyən mənfi nəticələrinə baxmayaraq, məhz bu müqavilələrlə İranın digər Avropa dövlətləri ilə qeyri-bərabər müqavilələrinin bağlanması təcrübəsi artdı. Bu müqavilələr antirus və antifransız səciyyə daşıyırdı. (Əliyarlı, 2009: 573).

Tez-tez dəyişən beynəlxalq münasibətərdə Qafqaz, xüsusən Azərbaycan diqqət mərkəzinə çevrildi. Rusiyanın, İranın və İngiltərənin Qafqazla, o cümlədən Azərbaycanla bağlı marağını nəzərdən keçirmək yerinə düşərdi. Rusiya Xəzər dənizini daxili dənizinə çevirmək, əlavə gəlir mənbəələrinə nail olmaq , Şərqi Hindistanda İngiltərənin Ost-Hind şirkətinin inhisarına son qoymağa, İran isə Rusiyanın Quzey Azərbaycanı işğal etməsinin qarşısını almağa, İngiltərə də həmçinin Qafqazda və Azərbaycanda Rusiyanın işğalçılıq planını pozmağa çalışırdı.

Bu dövrdə Azərbaycn üçün ən başlıca təhlükə Rusiya idi. Bildiyimiz kimi birinci Rusiya –İran müharpbəsi nəticəsinə Azərbaycanın iki yerə bölünməsi belə İran və İngiltərənin Quzey Azərbaycanına olan marağını aradan qaldırmamışdı. İranın bu marağının reallaşması

üçün 1814-cü ildə İngiltərə İranla müqavilə bağlamışdı. Müqaviləyə görə İngiltərə İrana hərbi müşavirlər göndərir, silahla təmin edirdi. Təbriz və digər İran şəhərlərində silah zavodlarının tikilməsinə köməklik göstərirdi. Fətəl şah bu tədbirlərdən sonra özünü dirçəlmiş və güclü hesab edib Rusiyaya Gülüstsn müqaviləsinin şərtlərinə yenidən baxmağı təklif etdi, lakin rədd cavabı aldı. Bundan sonra İran Rusiyaya qarşı birgə mübarizə aparmaq məqsədi ilə Türkiyə ilə danışıqlara başlayaraq Türkiyənin Rusiya ilə münasibətlərin pisləşdirmək üçün bütün diplomatik yollara əl atdı. Həmçinin, İran hakimiyyətlərini itirib İrana qaçmış xanlardan da istifadə etmək, Quzey Azərbaycanının əhalisini Rusiyaya qarşı qaldırmaq niyyətində idi. Öz məqsədini həyata keçirib Rusiyanı Quzey Azərbaycanından çıxarmaq üçün məqam gözləyirdi. 1825-ci il 14 dekqbrda Sankt-Peterburqa Dekabristlər üsyanın başlanması yeni arixi şəraitin yetişiyi demək idi. 1826-cı ilin əvvəllərində Dekabristlər üsyanının nəticələrinin aradan qaldırılmasına Rusiyanın başının qarışması ilə əlaqdər İran–Rusiya müharibəsinin yenidən başlanmasına yaranmış siyasi şəraitin yetişdiyini də İngiltərə səfiri İran şahına çatdırmışdı (Azərbaycan tarixi, 2007: 604).

1826-1828-illrdə baş vermiş ikinci Rusiya-iran müharibəsi Rusiyanın üstünlüyü ilə başa çatdı. 1828-ci il 10 fevralda Güney Azərbaycasnın Türkmənçay kəndində Rusiya ilı İran araslnda işğalçılıq, parçalamaq müqaviləsi imzalandı.Türkmənçay adıya tarixə düşən müqavilə 16 maddədən ibarət idi. Onları tarixi yaddaşı bərpa etmək məqsədi ilə, ixtisarla məqaləyə daxil etməyi bir vətəndaş mövqeyi kimi özümüzə borc bildik:

**I maddə-** Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında. onların vərəsələri və taxt-taçın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır;

**II maddə**- Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş verən və xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktının (1813-cü il, 12 oktyabr .Ə. Y.) qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər başa çatmışdır; onlar göstərilən Gülüstan paktını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təstiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər;

**III maddə-** İran şahı həzrətləri öz adından, öz vərəsələri ,varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəşt edir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən xanlıqların idarə edilməsinə aid olan bütün arxivləri, ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir;

**IV maddə-** Bu maddə çox geniş olduğundan konkret deyə bilərik ki, burda iki dövlət arasında sərhədd təstiq edilir;

**V maddə-** İran şahı həzrətləri bütün Rusiya həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də öz varisləri və İran taxt-tacının varisləri adından, yuxarıda göztərilən sərhəd xətti arasında, Qafqaz sıra dağları və Xəzər dəniz arasında yeləşən bütün torpaqların və bütün adların , bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır;

**VI maddə-** İran şahı həzrətləri müharibə nəticəsində Rusiyaya vurulan mənəvi, maddi və insan qurbanlarına görə 20 milyon təzminar ödəməyi öz üzərinə götürür;

**VII maddə** - Rusiya Abbas Mirzəni İran taxt-tacının varisi kimi gələcəkdə onu İran dövlətinin qanuni varisi kimi tanımağı öhdəsinə götürür;

**VIII maddə-** Xəzər dənizində mülki gəmiərə icazə veriır, lakin orda yalnız Rusiya bayrağı ilə hərbi donanma üzə bilərdi.

**IX maddə-** Dövlətlər arasında hər cür siyasi və diplomak əlaqlırə qarşılıqlı şəkildə imkan yaradılmalı və qarşılıqlı hörmət nümayiş etdirilməlidir;

**X maddə-** Qarşılıqlı şəkildə ticarət əlaqələri xüsusi vurğulanır;

**XI maddə**- Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və savaş ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olnacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökümətin xəziniəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir;

**XII maddə-** Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinn ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır; onlardan Arazın hər iki tərəfindən daşınmaz əmlaka malik olanlara üç il vaxt verilməlidir ki, onlar həmin mülkləri onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperator həzrətləri ona aydiyyatı olduğuna görə keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdann kənar edir;

**XIII maddə-** Bu və əvəlki müharibdə hər iki tərəfdən əsir düşənlərin dörd ay ərzində qaytarılması nəzərdə tutulur;

**XIV maddə-** Rusiya birtərəfli olaraq İrandan Naxçıvana, Qarabağa, İrəvandan isə İrana qaçanların məskunlaşmasına icazə verməyəcəyini qeyd edir. Lakin hər iki dövlətin sakinlərinə gəldikdə isə razılıq əsasında hər iki tərəfin bir dövlətdən digərinə keçmiş və gələcəkdə keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilır;

**XV maddə-** Şah həzrətləri Rus ordusu oralara daxil olarkən onların göstərdiyi müəyyən münasibətə görə Azərbaycan adlanan vilayətin bütün əhalisini və məmuru əf etməlidir;

**XVI maddə**-Müvəkkillər bu sülh müqaviləsi imazalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazimi fərman göndərməlidir...Bu sülh müqaviləsi bütün Rusiya imperatoru və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifikasiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvəkkilləri tərəfindən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir**...** ***Əslinə qol çəkmişlər: İvan Paskeviç, A.Obrezkov*** (Əliyarlı, 2009: 624).

**Bu müqavilə Azərbaycan xalqının taleyində hələ də sağalmaz bir yara kimi qövr eləyir...**

XIX əsrin birinci yarısında Qafqazın nəhayət, Çar Rusiyası tərəfindən işğalı başa çatsa da və Çar Rusiyasının daxili işi olsa da beynəlxalq aləmdə regiona olan hərbi-siyasi, iqtisadi maraq azalmamışdı. Bu hər şeydən əvvəl Qafqaz regionunun Qərbin Şərq siyasətinin tərkib hissəsi olmasından irəli gəlirdi. Qərb dövlətlərindən İngiltərənin Şərqdə eksponsionist siyasəti əsasən Hindistana gedən yolun təhlükəsizliyinin təmin edilməsi ilə sıx bağlı idi. London özünün xarici siyasətində həm Qafqaz, həm də Mərkəzi Asiya regionuna mühüm əhəmiyyət verirdi. Hər iki strateji məntəqə uğrunda İngiltərə-Rusiya qarşıdurması kəskin xarakter almaqda idi. İngiltərə belə düşünürdü ki, Qafqazda Rusiya üçün problem yaratmaq özünün Xəzər hövzəsində təsirini gücləndirə bilər.

1831-1833-cü illərdə Misirlə Türkiyə arasında gedən savaşda Rusiya imperatoru I Nikolay sultana kömək üçün donanma və quru qoşun korpusu göndərməyə şərait yaratdı. 1833-cü ilin aprelində rus qoşunları İstanbulun şimalında plasdarm qurdular. İyul ayında isə Rusiya və Osmanlı imperiyası arasında iki dövləti müharibə vəziyyətində bir-birinə kömək etməyə məcbur edən Unkar-İskelesi müqaviləsi imzalandı (Böyük Rusiya enskjopediyasl,c.339)

1833-cü il Unkar-İskelesi sazişindən sonra Çar Rusiyası boğazlara nəzarət imkanı əldə etdi. Qara dəniz hövzəsində möhkəmləndi. Belə bir şəraitdə İngiltərə-Osmanlı münasibətləri daha intensiv xarakter aldı. Qərb dövlətlərindən Fransa region dövlətlərindən isə İran da Qafqaz uğrunda öz diplomatik fəallıqlarını artırmış oldular. Həm Rusiya, həm də İngiltərə Qafqazda öz nəzarətlərini gücləndirmək üçün oyuncaq (marienetka) dövlət qurumu yaratmaq

üçün xüsusi layihələr hazırlamışdılar. Məsələn, İngiltərənin layihəsinə görə yaradılacaq oyuncaq dövlət "Cərkəziyyə" adlanmalı idi.

1834-cü ildi ingilis cəsusu D.Urkvart hətta müxtəlif vasitələrlə təsir altına düşmüş knyazlardan istifadə etməklə İngiltərənin nəzarətində olacaq bir dövlətin yaradılması planını həyata keçirmək niyyətində idi (Əliyev, 2009: 32).

İngiltərənin hərbi dairələri XIX əsrin ortalarında Krım ilə yanaşı Qafqazın bəzi məntəqələrini də Çar Rusiyasından qoparmağa çalışırdılar. 1854-cü ildə ingilis diplomatı Palmerston yazırdı "Mənim Rusiyaya qarşı məqsədim budur: Aland adaları və Finlandiya, İsveçrə, Baltik dənizi sahillərində Rusiyaya məxsus əyalətlər Prussiyaya, Almaniya ilə Rusiya arasında müstəqil Polşa dövləti yaratmaq, Valaxiya, Maldovanı və Dunay çayını Avstriyaya, Krım, Çərkəz və Gürcüstanın Türkiyəyə və eyni zamanda müstəqil Çərkəz dövləti yaratmaq, daha sonralar Cənubi Qafqazı Rusiyadan qoparmaq, Gürcüstanı bölmək, ayrıca Knyazlıqlar yaratmaq- Gürcüstan, Meqreliya, İmeretiya, Quriya, Ermənistanı Osmanlının ya da Böyük Britaniyanın himayəsinə vermək, Gülüstan və Ədirnə müqavilələrinə görə Çar Rusiyası tərəfindən işğal olunmuş torpaqların İrana və Türkiyəyə qaytarmaq, Rusiyanın Qafqazda sərhədləri Şimalda Terekdən Kubana qədər olmalıdır" (Hacıyev, 2001: 34).

Qafqaz məsələsində az-çox rol oynayan Qərb liderlərindən biri də polyak liderləri idi. Əslində polyak liderlərinin məqsədi Londonun nəzər-diqqətini cəlb etmək, ingilislərin gözündə öz nüfuzlarını qaldırmaq idi.

Polyak liderlərindən olan A.Çartoriyskinin planına görə Qafqazda ayrı-ayrı etnik qruplardan ibarət anti rus ittifaqı yaratmaq idi (Deqoev, 1992: 34).

**Nəticə**

Tarix boyu Qafqaz xalqları ayrı-ayrı Şərq, Qərb, Cənub və Şimaldan olan fövqəl dövlətlərin aramsız hücumlarına məruz qalmış və ən nəhayət Rusiyasnın tərəfindən zorla imperiyanın bir əyalətinə çevrilmişdir.

Bu gün də Qafqaz uğrunda hərbi-siyasi, iqtisadi rəqabət səngimək bilmir. Vaxtı ilə, xüsusi ilə XIX əsrdən başlanmış İngiltərə-Rusiya qarşıdurmasına bugün digər Qərb dövlətlərindən Fransa, dünyanın 3 güc mərkəzindən olan AİB, dünyanın super dövləti olan ABŞ Asiyanın pələnglərindən Çin, region dövlətlərindən Türkiyə Respublikası, İran daha ciddi maraq göstərməkdədirlər.

Adlarını qeyd etdiyim ABŞ və Avrioa dövlətləri öz planlarını həyata keçirmək üçün ənənəvi erməni kartından bir maşa kimi istifadə etməkdədirlər (Türkiyə Respublikası istisna olmaqla).

Rus imperiyasının Qafqaz siyasəti bu gün də dəyişməyib, Qafqaz xalqlarına qarşı antik Roma imperiyasından bu günədək davam etdirilən "parçala, hökmranlıq et" prinsipi abxaz-gürcü, gürcü-osetin, inquş-osetin, erməni-azərbaycanlı və s. yaradılmış süni münaqişə ocaqları Rusiya imperiyasının anti Qafqaz siyasətinin bir həlqəsidir.

"Ümumi Qafqaz" evinin yaranmasına imkan verməmək də həmin siyasətin məntiqi nəticəsidir (Sivilizasiya, 2024: 25).

Bu gün Qafqaz xalqlarının milli azadlıq mücadiləsi ilə heç cür barışmayan imperiyapərəst qüvvələr Qafqazı qan içində boğmuş Çar generallarının yolu ilə getmək istəyirlər. Hal-hazırda Qafqazda baş verən hadisələr buna sübutdur.

B.Napoleonun bir müdrük fikrini qeyd etmək yerinə düşər. "Süngü ilə bütün dünyanı fəth etmək olar, ancaq süngünün üstündə çox oturmaq olmaz."

**ƏDƏBİYYAT**

Azərbaycan tarixi (2007) Ən qədim zamanlardan XX əsrədək (I cild, dərslik). Bakı: "Çıraq" nəşriyyatı.

Əliyarlı, S. (2009) Azərbaycan tarixi: Uzaq keçmişdən 1870-ci ilə qədər (2-ci nəşr). Bakı: "Elm" nəşriyyatı

Əliyev, O. (2009) Qafqaz tarixi ən qədim çağlarından XVIII əsrin sonunadək (I hissə). Bakı: "Elm" nəşriyyatı
Hacıyev, K. S. (2001) Qafqazın geosiyasəti. Moskva
Deqoev, V. V. (1992) XIX əsrin 30-60-cı illərində Qafqaz məsələsi beynəlxalq münasibətlərdə. Moskva
Böyük Rusiya ensklopediyası, M.2007
Sivilizasiya (2024) Bakı: BAAU nəşriyyatı